*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 aprel 2017-ci il № 25 (2142) Qiymıəti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Aprel döyüşləri ordumuzun şanlı tarixi qələbəsidir

*Artıq baharın gözəl bir dövrünə - aprel ayına qədəm basırıq. Düşüncələrimiz isə bizi yenidən bir il əvvələ - 2016-cı ilin aprelində baş verən döyüşlərə aparır. Həmin günlər Azərbaycan Ordusunun cəbhə xəttindəki hərbi bölmələrinin rəşadətli döyüşçüləri bizə atəşkəsdən ötən dövr ərzində ilk dəfə olaraq əsl qələbənin qürurunu yaşatdılar...*



Aprel döyüşləri cəbhənin müxtəlif istiqamətlərində erməni silahlı qüvvələrinin mövqelərimizdə törətdiyi kəskin təxribatların nəticəsində başladı. Öz çirkin xislətinə sadiq qalan düşmənlərimiz iriçaplı silahlardan, artilleriyadan və raketlərdən nəinki ordumuzun mövqelərini, həmçinin yaxın ərazilərdəki kəndlərimizi atəşə tutdular. Nəticədə yüzlərlə ev dağıdıldı və dinc sakinlərimiz arasında itkilər qeydə alındı. Bundan hiddətlənən hərbi qulluqçularımız komandanlıqdan döyüş əmri alan kimi əks-hücuma keçdilər. Sürətli həmlələrimizdən vahiməyə düşən ermənilər isə mövqelərini tərk edib geri qaçmağa üz tutdular. Minlərlə hektar ərazi, həmçinin bir neçə vacib əhəmiyyətli yüksəklik işğaldan azad edildi. Artıq bir ildir ki, Azərbaycan xalqı bu qələbənin sevincini yaşayır və yenə də ordumuzun növbəti qələbələr qazanacağına ümidlidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə mötəbər tədbirlərdə çıxışları zamanı aprel döyüşlərinin əhəmiyyətini geniş vurğulayıb və qeyd edib ki, aprel döyüşləri ordumuzun şanlı tarixi qələbəsidir. "Hərbçilərimizin əməyi ən yüksək qiymətə layiqdir", - deyə dövlət başçısı döyüşlərdə xidmətləri olan hər kəsin zəhmətini yüksək qiymətləndirib. Azərbaycan xalqı da aprel döyüşlərinin davam etdiyi günlərdə öz ordusu, əsgəri ilə sıx birliyini nümayiş etdirdi. Döyüşmək üçün müvafiq qurumlara müraciət edən gənclər, keçmiş döyüşçülər və cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən adamlar birbaşa cəbhə xəttinə yollanmaq istəklərini ifadə etdilər. Amma ordu rəhbərliyi döyüşləri davam etdirmək üçün hərbi bölmələrimizin kifayət qədər imkanlara malik olduğunu bildirdi. Bununla belə xalqın sarsılmaz birliyi gənclərin vətənpərvərlik ruhunu qat-qat artırdı. Bu gün də gənclərimiz yüksək döyüş əzmindədir və torpaqlarımızı son qarışına kimi işğaldan azad etməyə hər an hazır olduqlarını bildirirlər.

**(Ardı 4-cü səhifədə)**

# Azərbaycan Xarici İşlər Nazirliyi aprel döyüşlərinin ildönümü ilə bağlı bəyanat yayıb

Bəyanatda deyilir: "2016-cı ilin aprelində cəbhədə vəziyyətin gərginləşməsindən bir il ötür. 2 aprel 2016-cı ildə Ermənistan işğal olunmuş ərazilərdəki mövqeyindən atəşi intensivləşdirərək, qoşunların təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrini və Azərbaycanın nəzarətindəki yaxın ərazilərdə sıx yaşayan mülki əhalini ağır artilleriya və iriçaplı silahlardan hədəfə aldı. Ermənistanın bu hücumları və növbəti zorakı addımları nəticəsində Azərbaycanın 34 yaşayış məntəqəsi və kəndi artilleriya atəşinə məruz qaldı, aralarında uşaqlar olmaqla 6 nəfər həlak oldu və 33 nəfər ağır yaralandı. Dövlət və özəl mülkiyyətə zərər yetirildi.

Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində mülki əhalinin təhlükəsizliyini təmin etmək və Ermənistanın növbəti təxribatlarının qarşısını almaq üçün zəruri əks-həmlə tədbirləri görüldü.

Ermənistanın təxribatçı hücumları nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi xidmətçiləri arasında həlak olanlar və yaralananlar oldu. Ölümündən sonra Azərbaycan hərbi qulluqçularının cəsədlərində Ermənistan tərəfindən işgəncələrin törədilməsi halları da qeydə alındı.

2016-cı il aprelin 5-də Moskvada Rusiya Federasiyasının vasitəçilik səyləri nəticəsində Ermənistan və Azərbaycan arasında atəşkəs razılaşdırıldı. Amma buna baxmayaraq, Ermənistan yenidən 2016-cı il aprelin 26-27-də təmas xətti boyunca yaşayış məntəqələri və kəndlərdə yaşayan mülki Azərbaycan əhalisini ağır artilleriyadan atəşə tutdu.

Aprel hadisələri bir daha nümayiş etdirdi ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu cəbhədə vəziyyətin gərginləşməsinin əsas səbəbidir və münaqişənin siyasi həlli üçün başlıca maneədir.

**(Ardı 5-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Birinci vitse-prezident Mehriban Əliyeva aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşüb

## Görüşdə "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi təqdim olunub



*Aprelin 3-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşüb.*

AZƏRTAC xəbər verir ki, görüşdə Mehriban Əliyevanın iştirakı ilə "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi təqdim olunub.

Birinci vitse-prezident Mehriban Əliyeva görüşdə çıxış edib.

- Hörmətli zabitlər, hörmətli əsgərlər.

Ötən ilin aprel ayının əvvəllərində Ermənistan Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişdir. Siz, sizin yoldaşlarınız, Azərbaycan əsgərləri bu təxribatın qarşısını aldınız, düşmənə layiqli cavab verdiniz. İşğal altındakı minlərlə hektar Azərbaycan torpağı uğurlu əks-hücum əməliyyatı nəticəsində azad olundu. Bu, Azərbaycanın böyük hərbi qələbəsidir. Azərbaycan dövləti bir daha bütün dünyaya nümayiş etdirdi ki, işğalla heç zaman barışmayacaq və Azərbaycan Ordusu lazım olan əməliyyatı uğurla həyata keçirməyə qadirdir.

Bir il bundan əvvəl azad etdiyiniz torpaqlarda bu gün yeni qəsəbələr salınır və 20 ildən çoxdur ki, öz yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlər yaxın gələcəkdə doğma torpaqlarına qayıdacaqlar. Bu, tarixi bir hadisədir, tarixi qələbədir. Bu gün bütün Azərbaycan xalqı sizinlə fəxr edir.

Aprel hadisələri Azərbaycan dövlətinin qüdrətini, Azərbaycan xalqının birliyini göstərdi. Azərbaycan Ordusu bu gün qüdrətli, lazımi müasir silah və texnika ilə tam təmin olunmuş ordudur. Azərbaycan əsgərləri yüksək peşəkarlıq, vətənpərvərlik, qəhrəmanlıq göstərərək işğal altında olan torpaqların bir qismini azad etdilər.

Aprel döyüşləri zamanı bizim itkilərimiz oldu. Bu itkilər bizim hamımız, hər bir azərbaycanlı üçün böyük dərddir. Azərbaycan gəncləri, əsgərlərimiz, zabitlərimiz Vətən yolunda qəhrəmanlıq göstərərək şəhid oldular, ömürlərini qurban verdilər. Övladını itirmək hər bir valideyn üçün ən böyük faciədir. Heç bir xalq istəməz ki, müharibə olsun. Heç bir ana istəməz ki, oğullar itirsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi Azərbaycan xalqının ürəyində daim yaşayacaq.




Azərbaycan sülhsevər ölkədir. Məhz buna görə biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini istəyirik və buna görə 20 ildən çoxdur ki, danışıqlar aparırıq. Lakin heç kim unutmamalıdır ki, Ermənistan Azərbaycanın torpaqlarını sülh yolu ilə işğal etməyib və Azərbaycan bu işğala heç vaxt dözməyəcək. Azərbaycan əsgərləri, Azərbaycan oğulları öz Vətəni yolunda mübarizə aparırlar, döyüşürlər, ömürlərini qurban verirlər, onların mübarizəsi haqq mübarizəsidir. Erməni əsgərinin Azərbaycan torpağında nə işi var?! Münaqişənin və itkilərin səbəbi erməni əsgərinin Azərbaycan torpağında olmasıdır. Mən erməni analara üz tutub söyləmək istəyirəm ki, qoymayın öz balalarınız işğal siyasətinin qurbanları olsun, işğal siyasətinə dəstək verməyin. Münaqişəyə tezliklə son qoyulmalıdır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Münaqişə beynəlxalq hüququn normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə öz həllini tapmalıdır, işğalçı qüvvələr Azərbaycan torpaqlarını tərk etməlidirlər, ondan sonra regionda sülh bərpa olunacaq və heç bir ana - nə erməni, nə də azərbaycanlı ana oğlunun məzarı üstündə göz yaşını tökməyəcək.

Aprel hadisələri zamanı və ondan sonrakı günlərdə Prezident və mən hospitallarda, xəstəxanalarda olduq. O zaman yaralanmış, xəsarət almış əsgərlərimizə yardım göstərən, onların tezliklə sağalması üçün əllərindən gələni edən tibb işçilərimizə minnətdarlığımı çatdırmaq istəyirəm. Yaralanmış əsgərlərin, demək olar ki, əksəriyyəti onların səyləri və əməyi nəticəsində sağalıb və normal həyat tərzinə qayıdıb və bu gün də Vətəni tam gücləri ilə qorumaq üçün hazırdırlar. Ümumiyyətlə, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanmış, xəsarət almış əsgərlərimizin sağlamlığının bərpasına Azərbaycan dövləti xüsusi diqqətlə yanaşır. Siz Vətən uğrunda vuruşursunuz. Siz yaralanmısınız, xəsarət almısınız. Azərbaycan dövləti və Azərbaycan xalqı üçün hər bir əsgər əzizdir, dəyərlidir. Sizin tezliklə normal həyata qayıtmağınız üçün Azərbaycan dövləti bütün lazımi addımları atmağa hazırdır.

Mənim tapşırığımla sizin hər birinizə fərdi yanaşma tətbiq olunacaq və normal hərəkət dinamikasına yardım edən müasir protezlə təmin olunacaqsınız. Tapşırığıma əsasən, xüsusi işçi qrup yaradılıb. Bu qrupda çalışan insanlar həm protezlərin təminatı, həm də gələcək mərhələdə onların texniki xidmətini həyata keçirəcəklər. İyirmi gün ərzində bütün lazımi işlər həyata keçiriləcək və mənə yekun hesabat təqdim olunacaq.

Bir azdan sonra mütəxəssislər bizə bu sahədə ən qabaqcıl texnologiyalar haqqında məlumat verəcəklər. Mən əminəm ki, bu addımlar atılandan sonra sizin normal həyata qayıtmağınız, sağlamlığınızın bərpa olunması daha da sürətlənəcək. Şübhəm yoxdur ki, siz gələcəkdə Azərbaycan üçün, Vətən üçün daha da böyük işlər görəcəksiniz.

Sonda mən sizə və sizin şəxsinizdə bütün Azərbaycan əsgərlərinə bir daha dərin hörmətimi çatdırıram. Sizə uğurlar arzulayıram.



* * *

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək dedi:

- Hörmətli xanım Birinci vitse-prezident.

Hörmətli tədbir iştirakçıları.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondu tərəfindən aprel döyüşlərində yaralanmış bir qrup hərbi qulluqçulara protezlərin təqdim edilməsi dövlət rəhbərliyinin Silahlı Qüvvələrin şəxsi heyətinə göstərdiyi diqqət və qayğının daha bir nümunəsidir.

2016-cı ilin aprel ayında Azərbaycan Ordusu erməni təxribatının qarşısını alaraq, uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri azad etdi. Dördgünlük şiddətli döyüşlərdə düşmən canlı qüvvədə və hərbi texnikada çoxlu sayda itkilər verərək geri çəkildi. Cəbhə və döyüş bölgəsində əməliyyat şəraiti tam olaraq Azərbaycan Ordusunun nəzarətinə keçdi.

Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusunun uğurlu əməliyyatı Silahlı Qüvvələrin Ali Baş Komandanının orduda həyata keçirdiyi islahatlar nəticəsində mümkün olub. Döyüşlərdən bir neçə gün sonra Azərbaycan Respublikası Prezidentinin və Birinci vitse-prezidentin cəbhəboyu kəndlərə səfər etməsi, əhali ilə görüşməsi, dağıdılmış evlərin bərpası istiqamətində verilən tapşırıqlar Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının hərbi hospitalda olaraq yaralı əsgərlərlə və onların valideynləri ilə görüşməsi və Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin şəhid olmuş hərbi qulluqçuların ailələrinə göstərdiyi dəstək Silahlı Qüvvələrin şəxsi heyəti arasında böyük ruh yüksəkliyi yaradıb.

Hörmətli xanım Birinci vitse-prezident, icazə verin, şəxsən öz adımdan, Silahlı Qüvvələrin şəxsi heyəti adından ordunun şəxsi heyətinə göstərdiyi diqqət və qayğıya görə, Azərbaycan Respublikasının Prezidentinə və şəxsən Sizə, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə dərin minnətdarlığımı bildirim.

Sağ olun.

* * *

Əmək və əhalinin Sosial müdafiəsi naziri Səlim Müslümov çıxış edərək dedi:

- Hörmətli xanım Birinci vitse-prezident.

Əvvəlcə, icazə verin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunmağınız münasibətilə əhalinin sosial müdafiəsi sahəsində çalışanlar adından Sizi səmimi qəlbdən təbrik edim və onların bu alternativsiz təyinatı hərarətlə qarşıladıqlarını məmnunluqla diqqətinizə çatdırım.

**(Ardı 3-cü səhifədə)**

# Birinci vitse-prezident Mehriban Əliyeva aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşüb

(Əvvəli 2-ci səhifədə)

Bu gün ötən ilin aprel döyüşlərində hərbi rəşadət göstərmiş döyüşçülərin nümayəndələri ilə görüşünüz Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olaraq Sizin respublikamızda həssas təbəqədən olan insanların, əlilliyi olan şəxslərin sosial müdafiəsinə, reabilitasiya və cəmiyyətə inteqrasiya məsələlərinə xüsusi diqqətinizin əyani göstəricisidir. Bu görüş bir daha sübut edir ki, ölkəmizin müstəqilliyini, konstitusiya quruluşunu və ərazi bütövlüyünü qoruyarkən sağlamlığını itirmiş insanların sosial müdafiəsi də Azərbaycan iqtidarı üçün Vətənimizin hərbi müdafiəsi qədər önəmli və vacibdir.

Hazırda ölkəmizdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş 13,5 min nəfərə əmək pensiyaları, sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri verilir və bu məqsədlər üçün il ərzində 60 milyon manat məbləğində vəsait sərf olunur. Bundan əlavə, qeyd edilən şəxslərin, eləcə də şəhid ailələrinin mənzil və fərdi evlərlə, müharibə əlillərinin isə minik avtomobilləri ilə təmin edilməsi üzrə mühüm sosial proqramlar da icra edilir. 2016-cı ildə 103 nəfər müharibə əlilinə, son 20 il ərzində isə 3476 nəfərə pulsuz avtomobil, o cümlədən müharibə əlilləri və şəhid ailələrinə son 20 il ərzində 3646 şəxsə mənzil və fərdi ev verilib.

2016-cı ildə 445 nəfər müharibə əlili sanatoriya-kurort putyovkası ilə təmin olunub, 271 nəfər Qarabağ müharibəsi əlilinin sosial-məişət problemlərinin həllinə kömək üçün 63 min manat, aprel döyüşləri zamanı əlil olmuş şəxslərə cari ilin yanvar ayında 10 min manat məbləğində birdəfəlik yardım edilib.

Son üç ildə və cari ilin ilk rübündə Respublika Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən 1460 nəfər müharibə əlilinə 23 935 protez ortopedik məmulat və reabilitasiya vasitələri, o cümlədən 144 ədəd əlil arabası verilib. Hazırda Azərbaycan Prezidentinin tapşırığı ilə həmin zabit və əsgərlərimizin protezlərinin bionik, yəni, hərəkət edən protezlərlə əvəzlənməsi prosesinə start verilib. Bu prosesin təşkilini Heydər Əliyev Fondu öz üzərinə götürüb və buna görə Sizə, hörmətli Mehriban xanım, bir daha dərin təşəkkürümüzü bildiririk.

* * *

Aprel döyüşlərində yaralanan zabit Elşən Qarayev çıxış edərək dedi:

\- Birinci vitse-prezident Mehriban xanım, əvvəla, Sizə öz minnətdarlığımızı bildiririk. Biz aprel döyüşlərinin canlı şahidləriyik.



Sizin və Ali Baş Komandanımızın aprel döyüşlərinin iştirakçılarına göstərdiyiniz diqqət və qayğını həmişə izləyirik, minnətdarlığımızı bildiririk. Reabilitasiya Mərkəzində ilkin mərhələdə protezlər qoyulması bizim üçün ümidverici bir hadisə oldu. Həqiqətən də, bu, təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasında bu protezlər biz hərbçilər - ayağını, qolunu, pəncəsini itirən hərbçilər üçün böyük bir uğurdur. Çünki xarici dövlətlərə gedibgəlmək maddi cəhətdən böyük çətinliklər yaradırdı. Ona görə də aprel döyüşçülərinin hamısının adından bu işlərdə göstərilən səylərə, qazanılan hər bir uğura görə minnətdarlığımızı bildiririk.

Aprel döyüşləri xalqımızın daim ordunun yanında olduğunu göstərdi. Ali Baş Komandanımız nə vaxt əmr versə, biz əlimizdə silah ordudayıq.

* * *

Görüşə yekun vuran Birinci vitse-prezident xanım Mehriban Əliyeva dedi:

\- Mən çıxışımda qeyd etdim ki, bu gün Azərbaycan dövləti Azərbaycan əsgərlərinə, Azərbaycan Ordusuna bütün lazımi dəstək göstərməyə qadirdir. Bunu biz nazirlərin çıxışlarında da eşitdik. Mən əminəm ki, torpaqlarımızın işğaldan azad olunması Azərbaycanın hər bir vətəndaşının ən böyük arzusudur.

Biz hamımız çox yaxşı bilirik ki, Azərbaycanın ən böyük problemi məhz bu münaqişədir. Hamımız inanırıq ki, ədalətin bərpa olunacağı gün tezliklə gələcək, torpaqlarımız azad olunacaq, qaçqınlarımız, məcburi köçkünlərimiz öz doğma torpaqlarına, doğma evlərinə qayıdacaqlar.

Əlbəttə, Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin bu işdə əməyi əvəzsizdir. Buna görə dövlətlə yanaşı, hər bir vətəndaşımız, Azərbaycan xalqı o günlər birlik nümayiş etdirdi. Hər kəsdə ruh yüksəkliyi var idi. Hər kəs özünü tamamilə çox güvənli hiss edirdi. Əminəm ki, bu qələbəni hər bir ailə evində qeyd edirdi. Hər bir azərbaycanlının borcudur ki, orduya, əsgərlərə yardım göstərsin. Bir daha deyirəm ki, Azərbaycan dövləti bu yardımı edir və bunu etməyə qadirdir. Dövlətimizin bütün imkanları var, bu yardımı edir və edəcək. Lakin mən hiss edirəm ki, insanlar da bu dəstəyi verməyə hazırdır.

Bir daha demək istəyirəm ki, siz həmin günlərdə əsl qəhrəmanlıq göstərmisiniz. Sizin göstərdiyiniz qəhrəmanlıq, əlbəttə, ilk növbədə, hərbi qələbə idi. Bu qələbə sayəsində torpaqlarımızın bir hissəsi azad olundu. İndi orada qəsəbələr salınır, insanlar öz evlərinə qayıdacaqlar. Amma bu, hərbi qələbə ilə yanaşı, həm də ümumxalq qələbəsidir. Çünki siz insanlara yeni bir nəfəs, yeni bir inam verdiniz. Torpaqlarımızın bir hissəsi işğaldan azad olundu. Yəni, inam yarandı ki, biz bütün torpaqlarımızı işğaldan mütləq azad edəcəyik. Çünki ədalət bərpa olunmalıdır. Cənab Prezident çıxışlarında dəfələrlə söyləyib ki, bizim heç bir dövlətin torpağında gözümüz yoxdur. Bizim əsgərlərimiz başqa dövlətin torpağında deyillər. Bizim oğullarımız doğma torpaqlarını müdafiə edirlər, doğma torpaqlarına görə vuruşurlar və həyatlarını qurban verirlər.

Bu hadisələrdən sonra mən şəhid əsgərlərimizin anaları ilə görüşdüm. Mən bir daha o qadınların - anaların, xanımların, bacıların, ailə üzvlərinin qarşısında baş əyirəm. Çünki onlar elə övladlar böyüdüblər ki, bütün xalq onların ismini söyləyir, onlarla fəxr edir. Şəhid anaları ilə görüşlərdə mən bir daha gördüm ki, belə qadınların yalnız belə oğulları ola bilər. Çünki onlar özləri də qəhrəman anadırlar. Əlbəttə, ana üçün cavan övlad itirməkdən ağır dərd ola bilməz. Hətta o ağır məqamda da deyirdilər: mən fəxr edirəm ki, oğlum Vətən yolunda ömrünü qurban verib, şəhid olub.

Ona görə, mən bir daha demək istəyirəm ki, Azərbaycan dövləti, Azərbaycan xalqı və Azərbaycan Ordusu bu məsələdə tamamilə bir mövqedən çıxış edir. Haqq-ədalət bizim tərəfimizdədir. Əminəm ki, bu münaqişə tezliklə öz həllini tapacaq. Yenə də deyirəm ki, heç bir xalq istəməz ki, müharibə olsun. Əminəm ki, erməni xalqı da istəmir ki, müharibə olsun. Azərbaycan xalqı da istəmir ki, müharibə olsun. Biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Yalnız və yalnız münaqişənin və itkilərin səbəbi erməni əsgərinin Azərbaycan torpağında olmasıdır. İşğalçı qüvvələr Azərbaycan torpaqlarından çıxmalıdırlar.

Əziz qardaşlar, sizə bir daha dərin minnətdarlığımı və hörmətimi çatdırıram. Nazir qeyd etdi ki, Heydər Əliyev Fondu bu layihədə iştirak edir. Bizim işçilərimiz bu məsələləri tam nəzarət altında saxlayır.

Yəqin ki, sizdə də Heydər Əliyev Fondunun fəaliyyəti haqqında yetərli informasiya var. Bir daha deyirəm ki, bizim Fondun işçiləri hər zaman sizə xidmət etməyə, sizə yardım göstərməyə hazırdır. Müxtəlif hallarda, müxtəlif vəziyyətlərdə, - həyatdır, hər şey ola bilər, - siz Fonda müraciət edə bilərsiniz. Mən sizə söz verirəm ki, hər bir müraciətə baxılacaq və imkan dairəsində çalışacağıq ki, sizə yardım edək.

Bir daha çox sağ olun. İndi mən sizi o biri zala dəvət edirəm. Mütəxəssislər orada bizə yeni, müasir protezlər haqqında məlumat verəcəklər.

* * *

Daha sonra "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsinin geniş təqdimatı oldu.

MEDİCOM şirkətinin direktoru Anar Rüstəmov videoçarx əsasında dünyanın aparıcı protez istehsalçılarının məhsulları haqqında məlumat verərək dedi:

\- Hörmətli Mehriban xanım. Əvvəl Sizə təşəkkür etmək istərdim ki, MEDİCOM şirkətinin "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsinin təqdimatına imkan yaratdınız.

Tapşırıq alan kimi, Heydər Əliyev Fondunun və müvafiq dövlət qurumlarının əməkdaşlarının iştirakı ilə yaradılan işçi qrupu hər bir əsgər və zabitlə fərdi görüşlər keçirərək qarşıda duran əsas vəzifə və tapşırıqları müəyyən edib. Layihə çərçivəsində ilkin mərhələdə əsgər və zabitlərimizin klassik protezlərlə təmin olunmasını düşünürdük. Mehriban xanım, lakin Sizin tapşırığınızdan sonra əsgər və zabitlərimiz dünyanın müasir protez istehsalçıları olan Almaniyanın, İslandiyanın, İngiltərənin, ABŞ-ın qabaqcıl şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin olunacaqlar.

Hər bir əsgər və zabitimizin bir çox fərdi xüsusiyyətləri, xüsusilə aktivlik dərəcələri, həyat tərzləri, əmək məşğuliyyətləri və hər bir istifadəçinin protezlərə olan fərdi tələbləri nəzərə alınaraq onlar üçün uyğun və yüksək keyfiyyətli protezlər tətbiq olunacaq.

Biz Heydər Əliyev Fondunun əməkdaşları ilə birlikdə layihənin tətbiqi mərhələlərini müəyyənləşdirmiş, hər bir mərhələ üzrə tələb olunan işləri yüksək səviyyədə həyata keçirərək, layihəni uğurla başa çatdıracağıq.

Hörmətli Mehriban xanım, biz əlimizdən gələni edəcəyik ki, bu mərhələlər üzrə qarşımızda duran vəzifələri qısa müddətdə yerinə yetirək.

İndi isə icazənizlə həmin protezlərin texniki göstəricilərini və istifadəçiyə verə biləcəyi faydaları diqqətinizə çatdırmaq istərdim. İlk təqdim edəcəyimiz nümunə dizaltı amputasiyalar üçün uyğun olan, Almaniyanın "Ottobock" şirkətinə məxsus dizaltı harmonik P3 aktiv vakuum sistemli protezlərdir. Harmonik P3 aktiv vakuum sistemli protez ayağın amputasiya olunmuş hissəsi ilə hərəki uyğunluq yaradır. Bunun sayəsində protezlə ayaq bir-birinə maksimum uyğunlaşmış olur.

Dizüstü protezin diz oynağının daxildə yüksək həssaslığa malik iki sensor vardır. Hərəkət zamanı yer səthindən ayrılmış hərəki siqnallar bu sensorlar vasitəsilə mikroprosessor idarəetmə sisteminə ötürülür. Beləliklə, insanın hərəkəti zamanı dəyişik zəminlərə uyğunlaşma təmin edilir.

BeBionik əl protezində isə iki ədəd həssas elektrod vardır. Beyindən alınan hərəki siqnallar həmin elektrodlar vasitəsilə mikroprosessor idarəetmə sisteminə ötürülür ki, bu da praktikada istifadəçinin əl hərəkətlərini tənzimləməyə imkan verir.

Bu protezlərin tətbiqi əsgər və zabitlərimizin fəal həyat tərzinin təmin olunmasına şərait yaradacaq.

Sonda xatirə şəkli çəkdirildi.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Aprel döyüşləri ordumuzun şanlı tarixi qələbəsidir

**(Əvvəli 1-ci səhifədə)**

Bu günlərdə yolum cəbhə xəttinə - aprel döyüşlərinin qızğın şəkildə getdiyi mövqelərədir. "Bayraqtəpə" adlanan ərazilərimiz də məhz ötən ilin aprelində Azərbaycan Ordusunun zəfər yürüşü nəticəsində düşməndən azad edilib.

Qərargahda həmsöhbətim "Azərbaycan Bayrağı" ordenli zabit Vüsal Ələsgərovdur. Müharibə illərinin ağrı-acılarını yaşamış təcrübəli hərbçi tabeliyində olan şəxsi heyətin yüksək döyüş ruhuna malik olduğunu bildirir.

- Aprel döyüşlərindən ötən hər gün bizi növbəti qələbələrimizə daha da yaxınlaşdırır, - deyir. - Bölmələrin hər birində həmin döyüşlərin iştirakçısı olmuş insanlar var, onlar döyüşlərlə bağlı xatirələrini gənc silahdaşları ilə bölüşür, şahidi olduqları qəhrəmanlıq, fədakarlıq nümunələrindən söhbət açırlar. Gənc əsgərlərimiz də belə təcrübəli hərbçilərin əhatəsində, onların döyüş yolundan, söhbətlərindən ruhlanaraq hərbin sirlərinə dərindən yiyələnirlər. Hər birini dinləndirsən, döyüşə hazır olacağını, sələflərinin qəhrəmanlıq yolunu davam etdirəcəyini deyəcək. Düşmənlə üz-üzə mövqelərdə ayıq-sayıq dayanan gənclərimiz savaş üçün bircə əmr gözləyirlər. Hər dəfə onların baxışlarındakı qığılcımı hiss edəndə mənə elə gəlir ki, qələbəmiz lap yaxındadır.

Bir azdan maşın bizi səliqə ilə işlənmiş səngərlərə aparır. Burada mühəndis-istehkam işləri, əsgərlərimizin qorunması üçün vacib olan bütün tədbirlər həyata keçirilib. Cəbhə xəttinə gələn yol kəndin içərisindən keçir. Necə deyərlər, hər ocaqda işıq yanır, bu isə insanların ordumuza böyük inamının təzahürüdür. Həyətbacalarında əmin-arxayın təsərrüfat qayğıları ilə məşğul olan adamlar yaxşı bilirlər ki, onlara bu rahatlığı bəxş edən Azərbaycan əsgəridir. Məhz ötən ilin aprel döyüşləri bu kəndin ətrafında gedib. Ordumuzun rəşadətli əsgər və zabitlərinin hünərinə arxayın olan kənd camaatı həmin döyüşlərdə bir nəfər kimi kənddən çıxmadı. Elin, xalqın belə güvənci, inamı isə döyüşçülərimizə yeni qüvvət verirdi. Yalnız qələbə naminə döyüşən oğulların hesabına indi bu ərazilərdə yaşamaq daha rahat və təhlükəsizdir. Çünki kəndin qarşısındakı yüksəklik indi Azərbaycan Ordusunun tam nəzarətindədir.



Budur, ilk döyüş postuna yetişirik. Bir neçə əsgərimiz silahını qürurla, inamla sinəsinə sıxıb Vətənimizi düşməndən göz bəbəyi kimi qoruyur. "Yurdumuzu qorumaqdan qürurluyam", - deyən döyüşçü Pərvin Qədirzadə artıq onuncu ayın əsgəridir.

- Pərvin, xidmətin necə keçir?

- Yaxşıyam, xidmətim də qaydasındadır. Evimiz, doğmalarımız sarıdan arxayınam. Burada xidmət etməkdən qürurluyam, çünki qoruduğumuz bu ərazilər bir il öncə aprel döyüşlərində işğaldan azad edilib. Burada neçə zabitimiz, neçə əsgərimiz qəhrəmanlıqla döyüşüb. Həmin döyüşlərin iştirakçısı olan əsgərlər artıq sıralarımızdan tərxis olunublar.

- Kaş ki, mən də aprel döyüşlərinin iştirakçısı olaydım, - deyə tovuzlu balası Ülvi Sadıqov söhbətimizə qoşulur. - Xalqımız neçə vaxtdır aprel döyüşlərindən, qəhrəmanlıq göstərmiş igidlərimizdən danışır. Fəxr edirəm ki, qəhrəmanların döyüşdüyü mövqeləri qorumaq indi mənə qismət olub.

Hüseyn Tağıyev isə gənc əsgərdir. Döyüş vəzifəsi qumbaraatan olan əsgər də bir il öncə döyüşlərdə hünər və rəşadət göstərmiş sələflərinin layiqli davamçısı olacağına söz verib. "Əgər döyüşlər başlasa, yenə də qələbə bizim olacaq, çünki aprel döyüşlərinin sınaqlarında bərkimiş təcrübəli komandirlərimiz, gizirlərimiz var. Ruhumuzla Vətənə bağlıyıq, onun hər qarışı uğrunda can əsirgəmərik".

**Polkovnik-leytenant**
***Arif PƏNAHOV,***
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**



# "Səhər açılanda Azərbaycan bayrağı Lələtəpədə dalğalanırdı"

*Aprel döyüşlərində qəhrəmancasına şəhid olan və "İgidliyə görə" medalı ilə təltif edilən Orxan Həmidovun anım mərasimi keçirildi. Tədbirdə cəsur döyüşçünün silahdaşları da iştirak edirdilər. Hərbi qulluqçuların arasında məğrur duruşlu, sinəsini "İgidliyə görə" medalı bəzəyən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu diqqətimi cəlb etdi. Mərasim başa çatdıqdan sonra onunla tanış olduq.*

Rövşən Rəhimov 1979-cu il təvəllüdlüdür, Füzuli rayonunun İşıqlı kəndindəndir.

- Hazırda kəndimiz düşmənin müvəqqəti işğalı altındadır, - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu deyir. - Ailəmiz Zovucuq qəsəbəsində yaşayır.

Ermənilər Füzuli rayonunun kəndlərini işğal edəndə Rövşənin 14 yaşı olub. Həmin dövrdə baş vermiş bir çox hadisələr onun yaddaşında əbədi həkk olunub. O zaman tabor Rövşəngilin evinin yanında yerləşib. Taborun döyüşçülərinin kəndin müdafiəsində necə durduqları onun xatirində möhkəm qalıb.

- Tez-tez hərbçilərin yanına gedirdim, - Rövşən xatırlayır. - Balaca olduğuma görə mənə "Malış" deyirdilər. Müharibə getdiyinə görə yaxına buraxmaq istəməsələr də, mən onların yanından əl çəkmirdim. İmkanım qədər onlara kömək edirdim. Dediklərini yerinə yetirirdim. Həmin döyüşlərdə qohumlarım şəhid olub. Qorxmaz Rəhimov əmim nəvəsi idi, döyüşlərdə həlak olmuşdu.

Əsgəri xidmətini başa vurduqdan bir müddət sonra Rövşən Rəhimov yenə ordu sıralarına qayıdıb. Həmsöhbətim evlidir, 4 övlad - iki oğlan, iki qız böyüdür.

Sanitar-təlimatçı aprel döyüşlərində düşmən mövqelərinin ələ keçirilməsində cəsarətlə döyüşərək şücaət göstərib. Həmin döyüşlər barədə, Vətən oğullarının göstərdiyi qəhrəmanlıqla bağlı Rövşən qürur hissilə danışdı:

- Aprelin 1-dən 2-nə keçən gecə düşmənin təxribatının qarşısını qətiyyətlə aldıq. Bundan sonra bizə komandanlıq əmr verdi və əks-hücuma keçdik.

Bizim qrup Lələtəpə istiqamətində irəli atıldı. Qısa vaxtda onların mövqelərini götürdük. Artıq səhər açılanda Azərbaycan bayrağı Lələtəpədə dalğalanırdı.

Düşmənin səngərlərdə neçə-neçə meyiti qalmışdı. Ancaq uğurlu əməliyyat bununla bitmədi. Azərbaycan Ordusunun artilleriyaçıları artıq düşmənin ələ keçirilmiş mövqelərindən arxadakı hədəflərə güclü zərbələr endirirdi.

- Lələtəpənin arxasında çökəkdə ermənilərin sığınacağı vardı, - cəsur döyüşçü deyir. - İgid komandirimiz, sonradan Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş zabit Şükür Həmidov soruşdu: "Mənim igidlərim, hazırsınız?" Cavab verdik ki, komandirimizin hər tapşırığını yerinə yetirməyə hazırıq.

Onun əmrilə biz həmin sığınacağa tərəf endik. Bir UAZ da qalmışdı sığınacağın qabağında. Ermənistan ordusunun zabit və əsgərlərinin sağ qalanları qorxudan qaçıb sığınacağa doluşmuşdu. Bizim döyüşçülərdən Üzeyir Nəcəfov onlara rusca qışqırdı ki, silahı atın, təslim olun. Ancaq düşmən bizim güclü hücumumuzdan möhkəm qorxmuşdu. Görünür, ona görə sığınacaqdan çıxmağa cürət etmədilər. Ermənilərdən biri qapını açıb üstümüzə əl qumbarası atdı, yenə tez qapını örtdü.



Rövşən Rəhimov qumbaranın qabağından kənara tullansa da, bir neçə qəlpə ayağına sancılır. Sığınacağa həmlə zamanı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Üzeyir Nəcəfov da ağır yaralanır. Qrupun sanitar-təlimatçısı olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu yaralanmasına baxmayaraq, dərhal silahdaşına yaxınlaşıb onun yaralarını sarıyır, Üzeyirə ilk tibbi yardım göstərir. Döyüş yerini tərk etməyən cəsur Vətən oğlu silahdaşları ilə birlikdə həmləni davam etdirir.

- Düşmən sığınacaqdan çıxmadığına görə daha bir qrup köməyə gəldi, - Rəhimov danışır. - Sığınacağın béridəki qapısından biz, o birisi qapısından o biri qrup düşmən əsgərlərini atəşə tutduq. Onların hamısını orada məhv etdik. Sığınacağa daxil olanda gördük ki, 19 nəfər erməni zabiti və əsgəri gizlənibmiş.

Həmin döyüşlərdən sonra fərqlənən zabit və əsgərlərimiz dövlət mükafatlarına təqdim olundular. Onların arasında Rövşən Rəhimov da var idi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev göstərdiyi şücaətə görə onu "İgidliyə görə" medalı ilə təltif etmişdi.

Rövşən yenə xidmətini davam etdirir. Vətənimizin hər qarışı uğrunda vuruşmağa, öz silahdaşları ilə birlikdə düşməni torpaqlarımızdan qovmağa hazırdır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Şəhidin xatirəsi anılıb

*Müdafiə Nazirliyi və Pirallahı rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Ordusunun aprel döyüşlərindəki qələbələrinin ildönümü və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən, "İgidliyə görə" (ölümündən sonra) medalı ilə təltif olunmuş şəhid əsgər Sarvan Mehrəliyevin il mərasimi ilə əlaqədar Pirallahı qəsəbəsində tədbir keçirilib.*



Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.

Tədbiri Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani açaraq qeyd edib ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin aprel döyüşlərində düşmən üzərində qazandığımız qələbələr dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini, vətənpərvərliyini göstərdi. Düşmən ordusu bir həmləyə biabırçı məğlubiyyətə uğradı və illər boyu öz ordusu haqqında yaratdığı mif darmadağın edildi. Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində düşmən təkcə məğlub edilmədi, sındırıldı. Aprel zəfəri hərb tariximizin parlaq bir səhifəsi kimi yaddaşlara həkk olundu.

Pirallahı rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov bildirib ki, aprel döyüşləri zamanı bütün xalqımız kimi, Pirallahı rayonunun əhalisi də Ali Baş Komandanın hər bir əmrinə hazır idi. "Həmin günlərdə xalqımız Ali Baş Komandanın ətrafında bir daha sıx birləşərək qəhrəman ordumuza dəstək nümayiş etdirdi. Pirallahıdan olan əsgər və zabitlərimiz aprel döyüşlərində əsl vətənpərvərlik, qəhrəmanlıq nümunələri göstərdilər. Bu rayonda məskunlaşmış, əslən Xocalının Meşəli kəndindən olan əsgər Sarvan Mehrəliyevin qardaşı Namiqlə Lələtəpə uğrunda döyüşlərdə, eyni səngərdə göstərdiyi şəxsi rəşadət və şücaət nümunələri hamımızı qürurlandırdı. Anası Xatirə xanımın himayəsində böyümüş hər iki qardaş bir daha Vətənə, dövlətə, xalqa və öz müdrik Prezidentinə, qətiyyətli Ali Baş Komandanına sədaqətlərini göstərdilər. Möhtərəm Prezidentimizin tapşırığına əsasən, şəhidin ailəsi hər cür qayğı ilə əhatə olunub, sosial problemləri yüksək səviyyədə həll olunub."



Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev ulu öndər Heydər Əliyev ilə başlanan ordu quruculuğu siyasətinin bu gün cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycan Ordusunun Cənubi Qafqazda ən güclü ordu olduğunu nəzərə çatdırıb və iştirakçısı olduğu aprel döyüşləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.



General-mayor Rasim Əliyev bu gün çapdan çıxan "Aprel döyüşləri - ruhumuzun qələbəsi" silsiləsindən A.Qurbaninin "Lələtəpə fatehləri" kitabının ilk nüsxəsini Lələtəpəni ilk fəth edənlərdən olan Lələtəpə uğrunda döyüşlərin ilk şəhidlərindən biri S.Mehrəliyevin anasına təqdim edib.

Şuşa rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, Xocalı rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov, millət vəkilləri və digər çıxış edənlər aprel döyüşlərindəki şanlı qələbəmizdən danışıb və əgər Ermənistan silahlı qüvvələri aprel döyüşlərindən nəticə çıxarmayacaqlarsa, bu əməliyyat kimi bir çox əməliyyatlara da hazır olduqlarını və Ali Baş Komandanın əmrini gözlədiklərini bəyan ediblər.

Şəhidin anası və qardaşı şəhid ailəsinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlığını bildirib. Əgər döyüş yenidən başlayarsa, şəhid anası oğlu ilə birgə çiyin-çiyinə döyüşməyə hazır olduğunu qeyd edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Müdafiə nazirinin Səudiyyə Ərəbistanına rəsmi səfəri başlayıb

Aprelin 4-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərə yola düşüb.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov İki Müqəddəs Ocağın xadimi, Səudiyyə Ərəbistanı Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səud, Səudiyyə Ərəbistanı Krallığı Vəliəhdinin varisi, Baş nazirin müavini, Müdafiə naziri şahzadə Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud və digər dövlət rəsmiləri ilə ikitərəfli görüşlər keçirəcək.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşlər zamanı ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri müzakirə ediləcək və regional təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılacaq.

## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğunun birgə tədbirləri davam edir

Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında Silahlı Qüvvələrdə hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması sahəsində 2017-ci il üçün imzalanan birgə tədbirlər planına əsasən, Qazax hərbi prokuroru ədliyyə polkovniki Şahin Zamanov Şəmkirdəki "N" hərbi hissəsində şəxsi heyətlə görüşüb.

Görüşdə şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, hərbi intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, ordu quruculuğuna mənfi təsir edə biləcək cinayət hadisələrinin təhlili və nəticələrindən asılı olaraq müvafiq tədbirlərin görülməsi, o cümlədən digər məsələlər barədə söhbətlər aparılıb.

Görüş zamanı müxtəlif mövzularda təkliflər səsləndirilib və hərbi qulluqçuları maraqlandıran bir sıra suallar cavablandırılıb.

## Azərbaycan Xarici İşlər Nazirliyi aprel döyüşlərinin ildönümü ilə bağlı bəyanat yayıb

**(Əvvəli 1-ci səhifədə)**

Aprel gərginliyindən sonra ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin xarici işlər nazirlərinin təşəbbüsü ilə Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentlərinin 2016-cı il mayın 16-da Vyanada görüşü keçirildi. Rusiya Federasiyası Prezidentinin dəvəti əsasında 2016-cı il iyunun 20-də Sankt-Peterburqda Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin görüşü keçirildi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə substantiv danışıqlar aparıldı.

O vaxtdan etibarən Ermənistan həyata keçirdiyi qərəzli siyasi-hərbi təxribatları və müxtəlif bəhanələri ilə təşəbbüsün saxlanmasına və Sankt-Peterburqda əldə edilmiş anlaşmaların konkret əməllərə keçirilməsinə, gərginliyin azaldılmasına imkan vermədi və öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına başlamadı.

Ermənistanın siyasi-hərbi rəhbərliyinin son bəyanatları və müharibə çağırışlı ritorikası və substantiv danışıqları boykot etməsi və qeyd-şərtlər irəli sürməsi açıq surətdə Ermənistanın konstruktiv şəkildə münaqişənin həllində niyyətli olmadığını göstərir. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində öz hərbi imkanlarını artırması, işğal olunmuş ərazilərin demoqrafik, mədəni və fiziki xüsusiyyətlərini dəyişməsi danışıqlar prosesini pozmaq və Azərbaycan ərazilərinin ilhaqını həyata keçirmək kimi çirkin niyyətlərini aşkara çıxarır.

Azərbaycan Respublikası bir daha bəyan edir ki, heç vaxt ərazilərinin işğalı ilə barışmayacaq. Münaqişənin həlli yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ölkəmizin suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür.

Münaqişənin həllinin prinsipial əsasını BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri təşkil edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində Azərbaycana qarşı gücdən istifadə olunması və Azərbaycan ərazilərinin işğalı pislənilir və ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı bir daha təsdiq olunur. Bu qətnamələrdə BMT Təhlükəsizlik Şurası bir daha təsbit edir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Həmçinin qətnamələrdə BMT Təhlükəsizlik Şurası tərəfindən işğalçı qüvvələrin bütün işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Biz beynəlxalq ictimaiyyəti və ATƏT-in Minsk Qrupunun həmsədrlərini Ermənistandan öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, işğala əsaslanan status-kvonun dəyişdirilməsi və regionda davamlı sülhün təmin olunması üçün konstruktiv şəkildə substantiv danışıqlarda iştirakın tələb edilməsinə çağırırıq".

# C.Naxçıvanski adına hərbi liseydə "Qələbəyə gedən yol" adlı hərbi vətənpərvərlik tədbiri keçirilib

*Ötən ilin aprel döyüşlərində qazanılan qələbə münasibəti ilə Nəsimi rayon İcra Hakimiyyətinin rəhbərliyi, ictimaiyyətin nümayəndələri və məktəblilərlə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "Qələbəyə gedən yol" mövzusunda görüş keçirildi. Tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad olundu. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.*





Çıxış üçün ilk söz C.Naxçıvanski adına Hərbi Liseyin rəis müavini polkovnik Elman Namazova verildi. O, qonaqları salamladıqdan sonra mərasim iştirakçılarına Hərbi lisey haqqında qısaca məlumat verdi: "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsası 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində yaradılıb. Bu hərbi tədris ocağının 46 illik yubileyini təntənəli şəkildə qeyd etməyə hazırlaşırıq.

Azərbaycanda hakimiyyətə gəldiyi ilk illərdə ulu öndər Heydər Əliyevi düşündürən əsas məqamlardan biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi idi. Bütün fəaliyyəti dövründə Heydər Əliyev öz taleyini hərb sənətinə həsr edənlərə böyük hörmətlə yanaşıb."

Polkovnik E.Namazov çıxışında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirmələrinin uğurlarından da söz açdı: "Hərbi liseyimizin yetirmələri müstəqil Azərbaycan Respublikasına sədaqətlə xidmət edərək Vətən uğrunda canlarını fəda etmiş, dövlətimizin ərazi bütövlüyü, müstəqilliyi naminə canlarını belə əsirgəməyiblər. Azərbaycan Respublikasının Milli Qəhrəmanlarından 10 nəfəri C.Naxçıvanski adına Hərbi Liseyin məzunu, 1 nəfəri isə zabitidir. Hazırda Silahlı Qüvvələrin elə bir sahəsi yoxdur ki, orada Hərbi liseyin məzunları xidmət etməsin. Eyni zamanda respublikamızın bütün güc strukturlarında Hərbi liseyin məzunları zabit kimi Vətən qarşısında öz vəzifə borclarını şərəflə yerinə yetirirlər. Hərbi liseyin məzunlardan 17 nəfəri general, 1 nəfəri isə vitse-admiral ali hərbi rütbəsinədək yüksəlib. Ötən ilin aprelində Ermənistanın silahlı bölmələrinin təxribatlarının qarşısının alınmasında, onlara sarsıdıcı zərbələrin endirilməsində və mühüm əhəmiyyətli yüksəkliklərin azad olunmasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunları olmuş zabitlərin böyük rolu olub. Döyüşlərdə göstərdiyi igidliyə görə məktəbimizin kursantı, 1994-cü ilin məzunu polkovnik-leytenant Murad Mirzəyevə (ölümündən sonra) və polkovnik Şükür Həmidova "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilib. İnanıram ki, bu gün məktəbdə təhsil alan kursantlar da gələcəkdə sələflərinin döyüş yollarını uğurla davam etdirəcəklər".

Sonra kursant Xəzər Nəsibli çıxış etdi. O, Hərbi liseydə təhsil üçün yaradılmış şəraitdən danışaraq aprel döyüşləri barədə də fikirlərini söylədi:

- Ötən ilin aprelində ordumuz bütün cəbhə boyu erməni işğalçılarına sarsıdıcı zərbələr vurdu. Qəsbkarlar Azərbaycan əsgərinin gücü, qüdrəti qarşısında dayana bilməyib geri çəkildilər. İnanıram ki, zabit və əsgərlərimiz bundan sonra da cəsarət və hünərləri ilə neçə belə şanlı qələbə qazanacaqlar.

Söz veririk ki, Hərbi liseyin ənənəsinə həmişə sadiq qalacaq, sələflərimizin döyüş yollarını şərəflə davam etdirəcəyik. Xalqımızda belə özəl bir deyim var: qəhrəmanlar heç vaxt ölmür. Bu, doğrudan da, elədir. Əgər bir qəhrəman şəhid olursa, onun yerində on nəfər qəhrəman doğulur. Biz kursantlar da doğulan həmin qəhrəmanlardanıq. Həmişə qəhrəmanlarımızdan örnək götürəcək, igidlikdə onlara oxşamağa çalışacağıq.

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov da mərasimdə çıxış etdi. Əvvəlcə kursantlarla belə bir görüş üçün şərait yaratdığına görə Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi. O da aprel döyüşlərindən söz açaraq bildirdi ki, gündən-günə gücünü, qüdrətini artıran Azərbaycan Ordusu erməni qəsbkarlarına sarsıdıcı zərbələr vurdu. "Lələtəpə yüksəkliyi, həmçinin Talış kəndi istiqamətindəki bir neçə yüksəklik erməni işğalçılarından azad edildi. Bu uğur bir daha ordumuzun artan gücünü bütün dünyaya göstərdi. Xalqın orduya inamı daha da artdı. Bu gün gənclər ordu sıralarına böyük həvəslə gedirlər. İnanıram ki, ötən il aprelin əvvəllərində qazanılan qələbələr davamlı olacaq. Çünki bizim İlham Əliyev kimi cəsarətli, qətiyyətli Prezidentimiz və Ali Baş Komandanımız var!"

Sonra təhsildə və nizam-intizamda fərqlənən bir qrup kursanta qiymətli hədiyyələr təqdim edildi.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Əlahiddə Ümumqoşun Ordunun müxtəlif güc strukturları ilə birgə komanda-qərargah təlimi başa çatıb

*Əlahiddə Ümumqoşun Ordunun müxtəlif güc strukturları ilə birgə komanda-qərargah təlimi başa çatıb. Təlimə 3 min nəfərədək şəxsi heyət, 200-dən artıq avtomobil və döyüş texnikası cəlb olunub.*



AZƏRTAC xəbər verir ki, üç mərhələdə keçirilən təlimin birinci mərhələsinə uyğun olaraq, birləşmə və hissələr "Həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılıb. Cəmləşmə rayonlarında qoşunların idarə olunması praktiki şəkildə həyata keçirilib.

Təlim planında Naxçıvan Muxtar Respublikasına qarşı yönəlmiş silahlı təcavüzün dəf edilməsi məqsədilə müdafiə əməliyyatının aparılması, düşmənin darmadağın edilməsi üzrə müxtəlif güc strukturlarının birgə fəaliyyətinin planlaşdırılması və təşkili, müdafiənin dərinliyinə soxulmuş düşmənin məhv edilməsi və müdafiənin əlverişli hədd üzrə bərpa olunması əsas məqsəd kimi qarşıya qoyulub.

Döyüş əməliyyatlarının planlaşdırılması zamanı komandir heyətinin kəskin dəyişən döyüş şəraitində çevik qərar qəbuletmə üzrə bilik və bacarıqlarının artırılmasına nail olunub. Eyni zamanda, qərargahlararası məlumat mübadiləsinin vaxtında həyata keçirilməsi məqsədilə müasir texnoloji vasitələrdən istifadə edilib.

Təlimin gedişində ideoloji qərargah yaradılıb, mənəvi-psixoloji hazırlıq məntəqələri, ideoloji otaqlar və səhra ideoloji guşələri fəaliyyət göstərib. Şəxsi heyətin peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi məqsədi ilə məşğələlər keçirilib.

Tibb təminatının yüksək səviyyədə təşkili üçün səhra tibb məntəqələri fəaliyyət göstərib. Təlimə cəlb edilmiş birləşmə və hissələr səhra şəraitində hərtərəfli şəraitlə təmin edilib. Tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib.

Komanda-qərargah təlimi uğurla başa çatıb, qarşıya qoyulan bütün məqsədlərə tam nail olunub.

# Hərbi Akademiyada praktiki məşğələ keçirilib

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kursunda təhsil alan dövlət orqanlarının yüksək vəzifəli qulluqçuları üçün Hərbi Hava Qüvvələrinin hərbi hissəsində praktiki məşğələ keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşğələ zamanı kurs dinləyiciləri real vaxt kəsiyində Azərbaycanın hava məkanının qorunması məsələləri və hərbi hissənin yeni texnikası ilə tanış olublar.

Praktiki məşğələnin sonunda akademik kurs adından hərbi hissə komandanlığına xatirə lövhəsi təqdim olunub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 aprel 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 121 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qaymaqlı kəndlərində, Berd rayonunun Çinari, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Qaraqaşlı, Yusifcanlı, Mərzili, Cəvahirli, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik"

**Ehtiyatda olan polkovnik Mehman SÜLEYMANOV,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və
Elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru**



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən müdrik siyasət, qısa vaxtda Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü ordusuna çevirdi. Bunu beynəlxalq ekspertlər də etiraf edirlər. Dövlətimizin siyasi və iqtisadi baxımdan davamlı inkişafı ordumuzun gələcəkdə də öz inkişaf tempini saxlamaq üçün əsaslı bir təminatdır.*

Silahlı Qüvvələrimizin inkişafının başlıca səbəblərindən biri, aydın və əsaslandırılmış dövlət siyasətidir. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır. Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir" fikirləri məhz bu baxımdan diqqəti çəkir.

2016-cı ilin aprelin ilk günlərində cəbhə xəttində erməni təxribatlarının qarşısı alınarkən Azərbaycan Ordusunun döyüş qüdrətini həm Ermənistanın təcavüzkar rəhbərliyi, həm də bütün dünya gördü, dərk etdi. Bu döyüşlər Azərbaycan dövlətçiliyinin, xalqımızın, ordumuzun mübarizə əzmini və iradəsini təsdiqlədi.

Ermənistanın siyasi və hərbi rəhbərliyi cəbhə xətti boyunca davamlı olaraq həyata keçirdikləri fitnəkarlıq və təxribatlara layiqli cavab aldı, ordusunun məğlubedilməzliyi haqqında yaratdığı miflərin puçluğunu xalqından gizlədə bilmədi.

2016-cı ilin aprel döyüşləri ərəfəsində cəbhə xətti boyunca işğalçı qüvvələrin təxribatlarının yeni bir dalğası başlamışdı. Həmin təxribatların nəticəsində 2016-cı il martın 25-də cəbhə xəttində Azərbaycanın bir hərbi qulluqçusu, martın 26-da Tovuz istiqamətində Ermənistanla sərhəddə daha iki hərbi qulluqçusu şəhid oldu. Sonrakı günlər ərzində də ermənilər tərəfindən atəşkəsin pozulması halları səngimədi.

Erməni hərbi qüvvələrinin belə fəallaşmasını dövlətimizin başçısı Ermənistan rəhbərliyinin münaqişəni sülh yolu ilə həll etməyə hazır olmaması ilə əlaqələndirdi. Xüsusilə, bu münaqişənin sülh yolu ilə həllinə ümidlər artanda Ermənistan rəhbərliyi təcavüzkar təxribatlara əl atır.

Ali Baş Komandan İlham Əliyev bildirir ki, apreldə cəbhədə vəziyyətin mürəkkəbləşməsi ərəfəsində Rusiyanın prezidenti və rəhbərliyi Minsk Qrupunun digər həmsədrləri ilə brilikdə Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni təkliflər irəli sürmüşdülər. Həmin təkliflərdə Azərbaycanın ərazi bütövlüyü məsələsinə münasibət də bildirilmişdi.

Amerika Birləşmiş Ştatlarının rəhbərliyi də Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyinə müəyyən mesajlar vermişdi. Yəni, Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün yeni bir perspektiv formalaşmaqda idi. Bölgədə status-kvonun dəyişməsini birmənalı şəkildə istəməyən Ermənistan rəhbərliyi münaqişənin həllinə ümidləri aradan qaldırmaq üçün yenidən cəbhə xəttində təxribatları genişləndirməyə başladı, sülh prosesinə böyük zərbə vurdu. Bunun nəticəsi idi ki, 2016-cı il aprelin 1-də Ermənistan yenidən atəşkəsi geniş miqyasda pozdu, Azərbaycanın cəbhə boyu kəndlərini iriçaplı silahlar və artilleriya ilə güclü atəşə tutdu, əhaliyə ciddi tələfatlar yetirdi. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qeyd etdiyi kimi, erməni hərbi qüvvələrinin təcavüzkarlığı nəticəsində yaranmış əməliyyat şəraiti qiymətləndirildikdən sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbərliyi əks-hücum əməliyyatı keçirmək qərarını qəbul etdi.

Erməni hərbi qüvvələrinin təxribatının qarşısının alınması üçün həyata keçirilən əks-hücum zamanı pilotsuz uçuş aparatları, müasir silah və texnikaların səmərəli tətbiqi nəticəsində düşmənə güclü zərbələr vuruldu. Əməliyyat zamanı düşmənin təmas xəttinin dərinliklərində formalaşdırdığı əks-hücum qruplaşmalarına, artilleriya, reaktiv və minaatan batareyalarına atəş zərbələri endirməklə ona böyük itkilər yetirildi.

Azərbaycanın hərbi qüvvələrinin döyüş üstünlüyünün qarşısını almaq və əvvəlki cəbhə xəttini bərpa etmək üçün Ermənistanın hərbi komandanlığı Madagiz və Ağdərə ətrafında yerləşmiş ehtiyat hərbi qüvvələrini hərəkətə gətirdi. Azərbaycanın hərbi qüvvələri tərəfindən qətiyyətlə Ermənistanın hərbi qüvvələrinin bu fəallığının qarşısı da alındı və erməni hərbi qüvvələrinə ciddi zərbə endirildi. İlkin məlumatlara görə, 300-ə yaxın erməni hərbçisi məhv edildi, yüzlərlə hərbçisi yaralandı. Bütünlükdə, 1994-cü ildə elan edilmiş atəşkəs dövründə Ermənistanın hərbi qüvvələri ilk dəfə Azərbaycanın Silahlı Qüvvələri tərəfindən çox ciddi zərbə aldılar və göstərilən bütün cəhdlərə baxmayaraq məğlubiyyətlə barışmalı oldular. Sonrakı günlərdə Azərbaycanın Silahlı Qüvvələri azad etdikləri mövqelərdə daha da möhkəmləndilər. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu döyüşlərə qiymət verərkən onları 1994-cü ilin yanvarında Füzuli rayonu ərazisində əldə edilmiş uğurlu döyüşlərlə müqayisə etdi. "1994-cü ilin yanvarında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmişdir, 22 kənd işğalçılardan azad edilmişdir. Bu, böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq".

Bu uğur Azərbaycanın hərbi-siyasi mövqelərini daha da gücləndirdi, işğal altında olan bütün ərazilərimizi azad etməyə qadir olduğumuzu sübuta yetirdi.

Ali Baş Komandan İlham Əliyev daha sonra bəyan etdi ki, aprelin 2-si Azərbaycan Ordusunun tarixində parlaq qələbə günü kimi qalacaqdır.

Bu qiymət, əslində, Azərbaycan xalqının iradəsinin ifadəsi idi. Azərbaycan Ordusunun bu döyüşlərin gedişində əldə etdiyi tarixi uğurlar xalqın sevinc və təntənəsini, şəhid olanların izdihamlı dəfn mərasimləri isə ordu ilə xalqın birliyini təsdiq etdi.

Aprel döyüşlərindən dərhal sonra Ali Baş Komandan İlham Əliyev cəbhə bölgəsinə səfər etdi, uğurlu döyüşlərin iştirakçıları olan əsgər və zabitlərlə, habelə bölgədə yaşayan əhalinin nümayəndələri ilə görüşdü, əldə edilmiş uğurlara yüksək qiymət verdi. Prezident İlham Əliyev 2016-cı il noyabrın 12-də Ermənistan ordusunun işğalından azad edilmiş Lələtəpə yüksəkliyində oldu, ön cəbhədə olan bölmələrin xidmət qayğıları ilə maraqlandı və müşahidə etdiklərindən razı qaldığını bildirdi. "Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun!"

Azərbaycan Ordusu dövlətin və xalqın etimadına layiq bir ordudur. Məhz belə bir ordunun mübarizliyi ilə 2016-cı ilin aprel döyüşlərində tarixi qələbə əldə edildi və şübhə yoxdur ki, bu qələbə Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi üçün bir dönüş nöqtəsidir.

# "Azərbaycanlı olmağımla qürurlandım"

Müharibə şəraitində yaşayırıq. Erməni silahlı bölmələri atəşkəsi tez-tez pozur, hətta təxribatlar törətməyə də cəhd göstərir. Azərbaycan əsgərləri bunların qarşısını mətinliklə alır, düşmən itkilər verərək geri çəkilir.

Mən də digər həmyaşıdlarım kimi inanıram ki, Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edəcək. Ötən ilin aprel döyüşlərini heç zaman unutmayacağıq. Ermənilər irimiqyaslı təxribat törətmək istəyəndə, Azərbaycan Ordusunun bölmələri əks-həmlə əməliyyatı həyata keçirdi. Qısamüddətli döyüşlər oldu. Ermənilər xeyli itki verdi, Lələtəpə, Bayraqtəpə kimi əhəmiyyətli yüksəkliklərdən uzaqlaşdırıldı. Onlar bu məğlubiyyətdən nəticə çıxarmalıydılar. Atəşkəsi yenə pozur, təxribatlar törətmək istəyirlər. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi bir fikri xatırlayıram: "Son günlər düşmən fəallaşmağa cəhd göstərir. Azərbaycan Ordusunun bölmələrinin sayıqlığı niyyətini alt-üst edir, Azərbaycan əsgəri qətiyyətlə, cəsarətlə döyüşür. Düşmən görür ki, belə əsgərləri olan xalqın torpaqlarını işğalda saxlaya bilməyəcək..."

**Hüsniyyə İDRİSOVA**

# Xəbərlər:

## Mosulda neft quyularındakı yanğın 6 aydan sonra söndürülüb



İraqın Mosul şəhərinin Əl-Kayyara bölgəsində İŞİD terror qruplaşması tərəfindən yandırılan neft quyularındakı yanğını söndürmək mümkün olub.

Küçələrə tökülən neft hələ də təhlükə yaradır. Qara dumanlardan xilas olan xalq şəhərin təmizlənməsini və normal həyatlarına qayıtmağı istəyirlər. Yanğın insanların sağlamlığına mənfi təsir göstərməklə yanaşı, ciddi iqtisadi ziyana da səbəb olub. Gündəlik ən azı 1000 barrel neft yanıb və ya ətrafa yayılıb.

Qeyd edək ki, İŞİD terrorçuları qəsəbəni tərk edərkən buradakı neft quyularını yandırıblar. Şəhərdəki neft yatağında 50 quyu var. İŞİD tərəfindən yandırılan 19 neft quyusundakı yanğının söndürülməsi 6 ay davam edib.

## Türkiyənin Şırnak vilayətində PKK-ya qarşı keçirilən əməliyyat zamanı üç əsgər şəhid olub



Türkiyənin Şırnak vilayətindəki Qabar dağında PKK terror təşkilatına qarşı keçirilən hərbi əməliyyat zamanı üç əsgər şəhid olub, beşi isə yaralanıb.

Bu barədə Şırnak valiliyi məlumat yayıb.

Məlumatda qeyd olunub ki, terroristlər əvvəlcədən həmin ərazidə yerləşdirdikləri bombanı əməliyyat zamanı işə salıblar.

Yaralı hərbçilər dərhal Şırnak dövlət xəstəxanasına yerləşdiriliblər.

Əməliyyat nəticəsində 5 terrorçu öldürülüb.

## Misirdə 3 min 700 illik ehramın qalıqları tapılıb



Paytaxt Qahirənin cənubundakı Daşur bölgəsində qazıntı zamanı ehramın içinə doğru gedən bir dəhliz və üzərində 10 sətir heroqlif yazısı olan bir daşdan düzəldilmiş blok tapılıb.

Misirin Qədim Əsərlər Nazirliyi aşkar edilən qalıqların yaxşı vəziyyətdə olduğunu və qazıntı işlərinin davam etdirildiyini deyib. Qazıntının başlanğıc mərhələsində olması səbəbindən ehramın ölçüləri hələlik məlum deyil. Tədqiqatçılar ehramın 13 Xanədanlıq Dövrünə aid olduğunu güman edirlər.

## Peterburq metrosunda partlayış nəticəsində ölənlərin sayı 14 nəfərə çatıb



Rusiyanın səhiyyə naziri Veronika Skvortsova Peterburq metropolitenində baş verən partlayış nəticəsində həlak olanların sayının 14 nəfərə çatdığını bildirib.

Onlardan 11-i hadisə yerində, 3-ü isə xəstəxanada ölüb. Nazirin sözlərinə görə, hazırda şəhər xəstəxanalarında terror aktı zamanı xəsarət alan 49 nəfər müalicə olunur.

Xatırladaq ki, aprelin 3-də Sankt-Peterburq metropoliteninin "Sennaya ploşad" və "Texnoloqiçeskiy institut" stansiyaları arasında hərəkət edən qatarda güclü partlayış törədilib. Terrorçunun vaqonlardan birində 200-300 qram trotil ekvivalentində naməlum partladıcı qurğunu işə saldığı bildirilir. Son məlumata əsasən, terror aktının mümkün icraçısı Qırğızıstanın Oş şəhərinin sakini, 1995-ci il təvəllüdlü Rusiya vətəndaşı Akbarjon Cəlilovdur.

Bundan başqa, həmin hadisədən bir qədər sonra "Ploşad Vosstaniya" stansiyasında daha bir partladıcı qurğu aşkar edilərək zərərsizləşdirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Ölümsüzlük odası

## Milli Qəhrəman Çingiz Qurbanov haqqında filmin təqdimatı olub



*Dövlətə, dövlətçiliyə, Vətənə, xalqa ad olan günlər tarixdi...*

2016-cı ilin dekabrın 29-u bir Vətən sevgisini təsdiqləyən tarix oldu. Bu tarixi hərbi xidmətə Qusar rayonundan çağırılmış Çingiz Salman oğlu Qurbanov yazdı. Vətən sevgisiylə torpaqlarımızın işğaldan azad edilməsi naminə yazdı. Azərbaycan əsgəri təsdiqlədi ki, düşmən işğal edilmiş torpaqlarımızdan çəkilməyincə, Azərbaycanın hər əsgəri Mübarizləşəcək...

Çingiz Qurbanovun qəhrəmanlığı düşmənin düşüncələrini çiliklədi. Düşmən bir daha ahladı ki, sonu məğlubiyyətdi...

Çingiz Qurbanov Azərbaycan Texniki Universitetinin "Xüsusi texnikalar və texnologiyalar" fakültəsinin məzunudu. Ona təhsilini davam etdirməyi məsləhət görüblər. İmtina edib: "Hərbi xidmət, sonra təhsil". Universitetin rektor əvəzi Faiq Yaqubovun təbirincə desək, zamanında o da yeni silahlar yaradanların sırasında olacaqdı...

Azərbaycan Texniki Universitetində Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanova həsr olunmuş "Çin olan yuxu" sənədli filminin təqdimat mərasimində millət vəkilləri - Əflatun Amaşov, Qənirə Paşayeva, Aydın Mirzəzadə, Musa Urud, Universitetin müəllimləri, tələbələri, şəhid qəhrəmanın valideynləri bir daha əmin oldular ki, bu işıqlı ömrün də işığı bu günümüzdən sabahlarımıza çatacaq...

Təqdimat mərasimində məlum oldu ki, universitetin tələbələrindən 10 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Onlarla tələbə şəhid olub.

Universitetin ilk şəhidi İlqar Əhmədovun riyaziyyat müəllimi olmuşam. O da Çingiz kimi sakit təbiətliydi, yoldaşlarından oxumaq ehtirasıyla fərqlənirdi. 1990-cı ilin 19 yanvar gecəsi şəhid oldu...

İstər çıxışlarda (filmin prodüsseri Vəli Turan, Universitetin rektor əvəzi Faiq Yaqubov,



Millət vəkili Aydın Mirzəzadə, Əməkdar İncəsənət xadimi, şair-publisist Abdulla Qurbani, şəhid qəhrəmanın atası Salman Qurbanov), istər filmin kadrlarının (uşaqlığının adi görüntülərində illər sonrasının işartılarını sezmək çətin deyil, universitetin müəllimlərinin dedikləri təsdiqləyir ki, Çingiz azərbaycançılıq ideologiyasını yaşam fəlsəfəsi bilən geniş erudisiyalı tələbə imiş, əsgər yoldaşlarının dediklərindən məlum olur ki, Çingiz Mübarizləşmək niyyətindəymiş, məqamında Mübarizləşəcəkmiş), istərsə də filmdə deyilənlərin zəmanətiylə deyə bilərik ki, Çingiz qeyri-adi uşaq olmayıb, qeyri-adi yeniyetmə, qeyri-adi gənc olmasa da, qeyri-adi Vətən sevgisinə, qeyri-adi qətiyyətə, cəsarətə malik əsgər olub. Bu qeyri-adilik Mübarizlik kimi təzahür elədi. Dekabrın 29-da qeyri-adi mərdliklə döyüşdü. Yaralandı. Şəhid oldu...

Təqdimat mərasimində Abdulla Qurbaninin dediyi bir fikir Çingiz Qurbanovun qəhrəmanlığına verilən dəyərdir: Çingiz ilk əsgərdir ki, son mənzilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzindən yola salınır.

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, ürəyimizdə yaşayacaq...

"Çin olan yuxu" sənədli filmi elegiya deyil, ölümsüzlük odasıdı...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

## Aprel döyüşlərinin birinci ildönümü ilə əlaqədar tədbirlər keçirilir

*Müdafiə nazirinin tapşırığına əsasən, Silahlı Qüvvələrdə 2016-cı il aprel döyüşlərinin birinci ildönümü ilə əlaqədar "Aprel döyüşləri bizim şanlı qələbəmizdir" devizi altında silsilə hərbi vətənpərvərlik tədbirləri keçirilir.*

Tədbirlər planında Müdafiə Nazirliyi rəhbərliyinin, döyüş iştirakçılarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə şəhidlərin məzarlarının ziyarəti, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin aprel döyüşləri haqqında tezislərindən irəli gələn tələblərin şəxsi heyətə aşılanması və mövzuya dair məşğələlərin, Azərbaycan Yazıçılar Birliyi üzvlərinin, ziyalıların hərbi qulluqçularla görüşlərinin, elm, mədəniyyət, incəsənət və ədəbiyyat xadimlərinin iştirakı ilə "Aprel döyüşlərinin hərb tariximizdə yeri və əhəmiyyəti" mövzusunda seminar və "dəyirmi masa"ların təşkil olunması nəzərdə tutulur.

Bundan əlavə, hərbi nəşrlərdə aprel döyüşlərinə dair silsilə materiallar dərc edilir, "Aprel döyüşləri - ruhumuzun qələbəsidir" silsiləsindən birinci "Lələtəpə" kitabının təqdimatı, Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyasının "Aprelin dörd günü" sənədli filminin nümayişi, şəhid övladlarının və xarici tələbələrin cəbhəboyu zonaya səfərləri və digər kütləvi hərbi vətənpərvərlik tədbirləri təşkil olunur.

*Növbəti sayımızda bu tədbirlərdən geniş yazılar dərc ediləcək.*

**"Azərbaycan Ordusu"**

## Aprelin 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli, 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna 1 aprel 2017-ci il tarixədək 81.152.798,16 AZN, 212.673,88 ABŞ dolları, 6835,69 avro və 5000,0 rubl vəsait daxil olub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Hərbi ənənələr, yeniliklər*

## ZTR-3E1 transportyoru



*Müasir ZTR-3 zirehli transportyoru Ukraynanın Morozov adına Xarkov maşınqayırma konstruktor bürosunda hazırlanıb. Bu, ZTR-80 zirehli maşınının modernləşdirilmiş variantıdır.*

Döyüş maşını hərbi əməliyyatlar zamanı motoatıcı bölmələrin daşınması və onlara atəş dayağı durmaq, düşmənin kütləvi qırğın silahından bölmələri qorumaq üçün istifadə edilir. 2001-ci ildə istismara verilib. 2015-ci ilin sonuna qədər müxtəlif dəyişikliklər edilərək onun döyüş keyfiyyətləri yaxşılaşdırılıb. Həmin ildə "Defence Securty-2015" sərgisində ZTR-3E1 transportyorunun və onun ehtiyat hissələrinin istehsalı haqqında razılaşma imzalanıb. Heyəti iki nəfərdən ibarətdir (sürücü-mexanik və operator). Desant bölməsinə səkkiz nəfər motoatıcı yerləşdirilir. Digərlərində olduğu kimi, ZTR-3E1-də də mühərrik-transmissiya bölməsində yanğınəleyhinə avtomat cihazlanma və kondisioner sistemi quraşdırılıb. Zirehli maşın güllə əleyhinə zireh və mərmi əleyhinə kevpar materialından hazırlanmış mühafizəyə malikdir. Mühərriki 325 at gücündə altısilindirli dizel mühərrikidir. Fransız istehsallı gülləyə davamlı şinlərlə təchiz edilib.

ZTR-3E1 maşını optik-elektron müşahidə, nişangah, atəşi idarəetmə "Trek-M" sistemi ilə təmin olunub. Onunla müşahidə aparmaq, yerüstü hədəfləri və təyyarələri aşkar etmək olur. Ayrıca panoram müşahidəetmə, hədəfi axtarma və hədəfgöstərici qurğuya malikdir. Zirehli transportyorun çəkisi 16.5 ton, uzunluğu 7650 mm, eni 2900 mm, hündürlüyü 2860 mm-dir, silahlanmasına 30 mm-lik top, kiçik kalibrli avtomat topla pulemyot, "Baryer" TƏİR-i, qumbaraatan daxildir. Sürəti şose yolda saatda 100 kilometrdir. Divar maneələrini asanlıqla keçə bilir, uzaq məsafələrə qədər üzmək qabiliyyəti var.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 118
Nüsxə 4650